*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 3-10*

**RƏFİYEVA XURAMAN ƏLİ**
**E-mail: xrefiyeva@gmail.com**
**ADPU-nun Şəki filialının**
**(Şəki şəh.,M.Rəsulzadə küç., 305)**

# TƏLƏBƏLƏRDƏ MOTİVASİYANIN FORMALAŞDIRILMASINDA MÜƏLLİMİN ROLU

**Xülasə**

Hazırda interaktiv metodlar, fəal təlim metodları, təlim texnologiyaları anlayışlarına tez-tez rast gəlirik. Xarici beynəlxalq təşkilatlar, milli qurumlar, müasir təlim metod və texnologiyalarının təbliği müəllimlər arasında yayılması ilə əlaqədar 10 ildən artıqdır ki, seminarlar, mühazirələr, layihələr keçirirlər. Öyrənilən yeni tərz, metod, vasitə və yanaşmalar yaradıcılığı, müstəqilliyi inkişaf etdirməklə yanaşı, insan şəxsiyyətini, onun insanlara, təbiətə, cəmiyyətə münasibətini, mənəvi dünyasını və s. inkişaf etdirməli, zənginləşdirməlidir.Motivlərin başqalarının təsiri ilə yaranan xarici, yaxud tələbələrin özünün daxilindən gələn, öz təşəbbüsü ilə yaranan daxili motivlər olması da, təhsilalanların peşəkarlığının artırılmasında və səriştəyə yiyələnmələrində az rol oynamır. Təlimin motivasiya mənbəyi kimi əyləncəyə gəldikdə isə,burada kompyüterin rolu əvəzsizdir. Əsas məsələ odur ki, kompyüterlərin istifadəsi ilə yerinə yetirilən bu əyləncə ifrat xarakter almasın və təlimin məqsədlərini üstələməsin. Fransız dili təlimi zamanı təlim prosesinin fərdi xüsusiyyətləri və aktivləşdirilməsi nəzərə alınmalıdır. IKT vasitələrinin tədris prosesinə tətbiqi Interaktiv dialoq yaradaraq, tədris fəaliyyətinin rejiminin sərbəst seçilməsinə və öyrənilən obyektlərin kompyüter vizuallaşdırılmasını nümayiş etdirilərək təlim prosesinin fərdiləşdirilməsinə və differensiallaşdırılmasına kömək edir.

**Açar sözlər:** motivasiya, bacarıq və vərdişlər, İKT-dən istifadə, innovasiyalar, əyanilik.

Müəllimlik peşəsi insan fəaliyyətinin çox mürəkkəb növünə aiddir. Pedaqoji funksiya müəllimə peşə bilikləri və bacarıqlarını tətbiq etmək istiqamətini göstərməkdir. Pedaqoji fəaliyyətin başlıca istiqamətlərini şagirdlərin təlimi, təhsili, tərbiyəsi, inkişafı və formalaşması təşkil edir. Bu işlərin hər birində müəllim çox konkret işlər görür. O, özü bu başlıca funksiyanı nə qədər dərindən başa düşsə öz şagirdlərinə də bir o qədər müstəqillik, təşəbbüskarlıq, sərbəstlik verər. Müəllimin pedaqoji qabiliyyətləri yeddi qrupa ayrılır: 1. Təşkilatçılıq qabiliyyəti – müəllimin uşaqları birləşdirmək, onları məşğul etmək, vəzifələri bölüşdürmək, işi planlaşdırmaq, görülən işə yekun vurmaq və s. bacarığında özünü göstərir. 2. Təlim (öyrətmək, didaktik) qabiliyyəti – tədris materialının əyani vasitələri, avadanlığı

seçmək və hazırlamaq, tədris materialını başa düşülən şəkildə, aydın, ifadəli, inandırıcı nəql etmək, tədris – idrak fəallığını yüksəltmək, idrak maraqlarını və onların mənəvi tələbatlarını stimullaşdırmaq bacarığı daxildir. Məktəblərin komputerləşdirilməsi, gənclərin virtual dünyaya çıxışının təmin edilməsi,onların informasiya texnoloqiyaları ilə işləmək vərdişlərinə yiyələnmələri üçün atılan məqsədyönlü addımlar da məhz bu məqsədə xidmət edir.

İnteraktiv metodlarla əlaqədar xarici təcrübədən istifadə edilən və əməli işdə tətbiq olunan bir sıra müxtəlif adlar və terminlərin işlədilməsinə diqqət yetirməyin zəruriliyi ortaya çıxır. Bu adların verilməsi nəzəri ideyadan deyil, praktikadan – təlim təcrübəsindən irəli gəlmişdir. Əgər hər hansı işini mükəmməl bilən, yaradıcı işləyən müəllim öz təcrübəsində şagirdlərarası fəallaşdırmanı təmin edən hər hansı metodika işləyib tətbiq edərsə özü də onun adını verə bilər.

İKT-nin köməyi ilə dərsə hazırlaşarkən unutmaq olmaz ki,bu dərsdir və bu da o deməkdir ki,tədris materialı seçilərkən əsas didaktik prinsiplər-sistemlilik və ardıcıllıq, uyğunluq və elmlilik nəzərə alınmalıdır. Bununla belə, komputer müəllimi əvəz etmir, yalnız onu tamamlayır. İKT-dən istifadə imkanını genişləndirir, elektron kitabxanalardan və başqa informasiya resurslarından istifadə etmək qabiliyyətini fomalaşdırır. İKT vasitəsi ilə təşkil olunmuş dərs əyani, rəngarəng, imformativ və interaktiv olur.Bu da müəllim və şagirdin vaxtına qənaət edir, şagirdə öz tempində işləmə imkanı verir, müəllimə şagirdlə fərqli və fərdi şəkildə işləmək imkanı yaradır, təlimin nəticələrini operativ şəkildə yoxlamaq və qiymətləndirmək imkanı verir. Bütün qeyd olunanlara əlavə olaraq İKT vasitələrini tədris prosesinə tətbiq edərkən aşağıdakı faktorları da nəzərə almaq məqsədyönlü olardı: -sinifin hazırlıq səviyyəsi, -dərsin metodiki məqsədi, -dərsin növü, -şagirdlərin təlimin aktivliyinə görə hazırlığı. Yeni İnformasiya Texnoloqiyalarının təhsildə tətbiqi prosesi ümumilikdə öz müsbət nəticəsini vermişdir, internetdə təlim resurslarının tutumu, müəllim və şagirdlərin internet resurslarından istifadə aktivliyi armışdır. Müəllim tələbələrin təlim ehtiyaclarını təmin edərək, onların dərsə olan maraqlarının artırılmasına nail olur. Müəllimin özünün yüksək potensialının olması, dərslərə həvəslə hazırlaşması, tələbələrlə emosional bağlılıq qura bilməsi və s. keyfiyyətlərə malik olması dilöyrənənlərin onun səriştəlilik bacarığına əmin olmasına kömək edir. Müəllim tələbələrin fəaliyyətləri icra edən zaman vaxtında rəy vermək məsələsinə də diqqət edir [1, s.117]. Müəllimə dərsi yüksək estetik və emotional səviyyədə keçirməyə kömək edir, daha çox didaktik materiallardan istifadəyə imkan yaradır.

Çox fəal müəllim: öz şagirdlərini yüksək qiymətləndirməyə və qeyri – real ünsiyyət modelləri qurmağa meyillidir. Ona görə əgər şagird başqalarına nisbətən fəaldırsa, o qiyamçı və dələduz, əgər passivdirsə tənbəldir. Belə müəllimin uydurduğu qiymətlər ona müvafiq olaraq hərəkət etməyə məcbur edir. Azərbaycanda interaktiv metodlarla, yeni texnologiyalarla işləyən müəllimlərin iş təcrübəsi demək olar ki, uğurlu alınır. Ancaq onu da qeyd edək ki, interaktiv təlim metodlarından

həmişə istifadə etmək onun təsirini azalda bilər. Həqiqi təlim üçün metod və texnologiyaları qarşıya qoyulmuş məqsəd və şəraitindən asılı olaraq müəllimlər fənnə, mövzuya, şagirdlərin təcrübə və bilik səviyyəsinə görə yeni təlim metodlarından, müxtəlif metodika və texnologiyalardan istifadə etməyi bacarmalıdırlar.

Professor F.Klippel qeyd edir ki, dərs zamanı müxtəlif təlim fəaliyyətlərindən istifadə etməyin bir sıra üstünlükləri vardır. O, vurğulayır ki, xarici dil dərslərində təlim üsullarından istifadə etmək, ilk növbədə tələbələrlə müəllimlər arasında psixoloji məsafəni azaldır, onların bir-birini daha yaxşı tanıması üçün şərait yaradır [4, s.8].

Kompüterin Azərbaycan məktəblərinə daxil olduğu indiki zamanda bu prinsipin çox böyük əhəmiyyəti vardır. Təlim – yalnız təfəkkürlə iş deyil, təlimin nəticələri digər psixi proseslərin razılaşdırılmış təsirindən və insanın digər psixi xüsusiyyətlərinin meydana çıxmasından asılıdır. Təlim fəaliyyətinin fəallaşdırılması bu prosesdə motivləşdirmənin və psixi proseslərin idarə edilməsindən çox asılıdır, əks təqdirdə tətbiq olunan pedaqoji texnologiya və ya interaktiv metodlar istənilən səmərəli nəticəni verə bilməz.

Bu zaman tələbələrin dil bilikləri təkmilləşdirilir; vizual öyrənənlərin maraqlarını nəzərə alaraq əyani təlim materiallarından istifadəyə üstünlük verilir. Belə olduqda, tələbələrin müxtəlif təsvirlər vasitəsilə materiallara marağını oyatmaq mümkündür; məlumat boşluğu olan tapşırıqlardan istifadə mühümdür. Bu tapşırıqların yerinə yetirilməsi zamanı tələbələr yaradıcı fikirlər səsləndirərək, araşdırma aparmağa maraq göstərir; problemli vəziyyət yaradaraq tələbələrin məsələ ilə bağlı fikirləri müzakirə edilir; təlim zamanı daha çox real həyatla bağlı hadisələrdən nümunələr gətirərək onların dərsə olan maraqları artırılır. Təlimi necə motivləşdirmək olar?

1. Təlimin motivləşdirilməsi dəqiq, məqsədyönlülük olmalıdır.

2. Təlimin məzmunu şagirdlərin dərketmə səviyyələrinə uyğun olaraq seçilməlidir.

3. Hər bir fənnin dövlətin təhsil standartlarına uyğun olması üçün optimal səviyyə həyata keçirilməlidir. 4. Şagirdlərin şəxsiyyətyönümlülüyü, maraq və meylləri nəzərə alınmalıdır.

5. Verilən biliklərin həyati gərəkliliyi meydana çıxarılmalıdır və s.

Öyrənmə proseslərini (diqqəti, marağı, təfəkkürü) fəallaşdırmaq üçün isə bir neçə vacib şərtə əməl edilməlidir: - Məşğələlər, sosial-gigiyenik tələblərə cavab verən şəraitdə aparılmalıdır. Buraya binanın (avadanlığı) abadlığı, istiliyi, akkustikası, işıqlılığı, gəliş-gedişi daxildir. Əgər təlim tədrisi üçün normal şərait yoxdursa, orada diqqət və qavrama yüksək ola bilməz. Alimlər müəyyənləşdirmişlər ki, normal yatmamaq və aclıq əqli əməyin məhsuldarlığını kəskin şəkildə endirir. Bu şərt təkcə təhsil alanlara deyil, təhsil verənlərə də aiddir; Əyani vasitələrdən, didaktik

materiallardan istifadə zamanı həmin materialların təmiz, səliqəli, yararlı olması təmin edilməlidir. Müəllimin fərdi məsuliyyəti və peşəkarlığı savadlı kadrların yetişdirilməsində mühüm əhəmiyyət kəsb edir. Siracəddin Urməvinin “Öyrənən öyrədənin davamçısıdır” deyimi xüsusilə bu fikri təsdiqləyir [3, s.183].

Eləcə də müəllimin şərhi kitab dili ilə deyil, canlı danışıq səviyyəsində, həm də professional olmalıdır. Həmçinin müəllimin səsinin ucalığı, tembri, nitqin tempi, intonasiyası, pauza təlim prosesinin təşkilində mühüm rol oynayır. Təəssüf ki, bu cür əhəmiyyətli keyfiyyətlər müəllim hazırlığında lazımınca nəzərə alınmır; - Təlim prosesində xoş əhval - ruhiyənin yaradılması intellektual məhsuldarlığı xeyli artırır. Təəssüf ki, müəllimlərin xeyli qismi bu cəhəti yerinə yetirmirlər. Müşahidələrimiz göstərir ki, dayaz biliyi olan, sinfi idarə edə bilməyən hazırlıqsız müəllimlər sinifdə tələbkarlıq adı altında amirlik edir. Kobud söz gücünə, özlərinin qəbul edilməsinə çalışırlar. Belə üslub şagirdlərin müəllimi dinləməyə də, təlim fəaliyyətinə də marağını heçə endirir; - İnformasiyanın vizual və sözlə verilməsinin əlaqələndirilməsi şagirdlərin qavramasını və dərkini həm asanlaşdırır, həm də məhsuldar edir. Kompüter texnikasının və verilənlərin ötürülməsi vasitələrinin inkişafı sürətinə və miqyasına görə fenomenal sayıla bilər və bu proseslərin həyata keçirilməsində yeni informasiya texnologiyalarının tətbiqi cəmiyyətin bütün fəaliyyət sahələrində öz bəhrəsini verməkdədir. Artıq yeni nəslin müəllimlərindən tədris etdikləri fənnin məzmununa və məqsədinə müvafiq, təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan, onun harmonik inkişafını mümkün edən texnologiyaları seçib tədrisdə tətbiq etmək tələb olunur.

Qeyd edək ki, bütün dərslərdə interaktiv metodun tətbiqi vacibdir, belə bu metod dil öyrənənləri passiv idarə olmaqdan azad edirsə onların qarşıya qoyulmuş məqsədə daha sürətlə çatır. Dərsin məqsədindən asılı olaraq səriştəli müəllim computer biliklərindən istifadə vizuallığa daha çox yer ayırmalı, əlaqədar qısametrajlı filmlərə baxılmaqla,mövzu ilə bağlıdır

XVIII əsr Fransa maarifçilərinin görkəmli nümayəndəsi ,şair,publisist, tarixçi, hüquq müdafiəçisi və filosofu Volterin təbirincə desək: “Çox dil bilmək qalanın bir neçə qapısının açarına sahib olmaqdır”[5]. Bu baxımdan dili daha asan və səmərəli öyrətmək müasir metodların əhəmiyyətini artırır.

## İstifadə olunan ədəbiyyat

1. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2006.
2. Bünyadova F., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı : 2000.
3. Kərimov Y. Pedaqoji tədqiqat metodları. Bakı : 2009.
4. https://www.muallim.edu.az/news.php?id=455
5. https://az.wikipedia.org/wiki/Volter

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 3-10*

**Рафиева Хураман Али**

**РОЛЬ ПЕДАГОГА В ФОРМИРОВАНИИ МОТИВАЦИИ СТУДЕНТОВ**

**РЕЗЮМЕ**

В настоящее время мы часто сталкиваемся с понятиями интерактивных методов, активных методов обучения и технологий обучения. Зарубежные международные организации, национальные учреждения уже более 10 лет проводят семинары, лекции и проекты в связи с распространением современных методов и технологий обучения среди учителей. Помимо развития творческих способностей и самостоятельности, изученные новые способы, методы, средства и подходы также совершенствуют личность человека, его отношение к людям, природе, обществу, духовному миру и т. д. он должен развиваться и обогащаться.Немаловажную роль в повышении профессионализма учащихся играет то, что мотивы носят внешний характер, вызванный влиянием других, или внутренние мотивы, исходящие изнутри самих обучающихся и возникающие по их собственной инициативе. студентов и приобретения компетентности. Что касается развлечений как источника мотивации к тренировкам, то здесь роль компьютера неоценима. Главное, чтобы это развлечение, осуществляемое с использованием компьютеров, не становилось экстремальным и не выходило за рамки образовательных целей. При обучении французскому языку следует учитывать индивидуальные особенности и активизацию процесса обучения. Применение инструментов ИКТ в образовательном процессе помогает индивидуализировать и дифференцировать учебный процесс за счет создания интерактивного диалога, свободного выбора режима учебной деятельности и отображения компьютерной визуализации изучаемых объектов.

**Ключевые слова:** мотивация, навыки и привычки, использование ИКТ, инновации, ясность

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 3-10*

**Rafiyeva Khuraman Ali**

# THE TEACHER'S ROLE IN FORMING STUDENTS' MOTIVATION

**Summary**

Nowadays, we often come across the concepts of interactive methods, active learning methods and learning technologies. Foreign international organizations and national institutions have been conducting seminars, lectures and projects for more than 10 years in connection with the dissemination of modern teaching methods and technologies among teachers. In addition to the development of creative abilities and independence, the learned new ways, methods, means and approaches also improve a person's personality, his attitude towards people, nature, society, the spiritual world, etc. he must develop and enrich himself. An important role in improving the professionalism of students is played by that the motives are external in nature, caused by the influence of others, or internal motives that come from within the students themselves and arise on their own initiative. students and the acquisition of competence. As for entertainment as a source of motivation for training, the role of the computer is invaluable. The main thing is that this entertainment, carried out using computers, does not become extreme and does not go beyond educational purposes. When teaching French, individual characteristics and the activation of the learning process should be taken into account. The use of ICT tools in the educational process helps to individualize and differentiate the educational process by creating an interactive dialogue, freely choosing the mode of educational activities and displaying computer visualization of the objects being studied.

**Key words:** motivation,skills and habits, use of ICT, innovations, visibility

**Filologiya üzrə fəlsəfə doktoru, dosent Ulduz Mürşüdova tərəfindən çapa tövsiyə olunmuşdur.**